Şirin bibərin istixanalar üçün yeni "Töhfə" sortu xarici mənşəli "Herpa" $F_1$ hibridinə məxsus bitkilərin $F_3$ nəslində seçmə yolu ilə əldə edilmiş və sonrakı nəsillərdə sabitləşdirilərək çoxaldılmış orijinal bitkilər əsasında yaradılmışdır.

Sortun bitkisi yığcam formalı, orta irilikdə və az şaxələnəndir. Bitki ştambının hündürlüyü 8-13 sm, kolun hündürlüyü isə 52-62 sm-dir. Yarpaqlanma dərəcəsi orta səviyyəlidir. Gövdənin diametri 1,6-2,3 sm, rəngi isə yaşıl olub, künclüdür. Gövdə üzərində 6-10 yarpaqdan sonra budaqlar sonra budaqlar formalaşır.



Yarpaq ayası uzunsov-yumurtavari formalı, uzunluğu 10-14 sm və eni 4,5-7,0 sm olaraq iridir, rəngi yaşıldır, kənarı tamdır, üzərində tükücüklərin sıxlığı ortadır. Buğumarası məsafə 4-8 sm-dir.

Çiçəkləri iridir (diametri 2,4-3,0 sm), ağ rənglidir, ləçəklərin və erkəkciklərin sayı 6-7-dir. Tozluq kisələrin rəngi göydür. Kasacığın forması boşqabvari olub, onda antosian piqmenti yoxdur.



Meyvələrin bitki üzərində orta sayı 15-20 ədəd olaraq onlar əsasən tək-tək, bəzən də cüt-cüt yerləşirlər. Forması konusvari, uzunluğu 74-93 mm və diametri 59-73-dir. Onların rəngi texniki yetişkənlik fazasında açıq yaşıl, bioloji (tam) yetişkənlik fazasında isə qırmızıdır. Səthi zəif qabırğalı, bitki üzərində yerləşmə vəziyyəti əsasən dikdurandır. Meyvə divarının (perikarpin) qalınlığı 0,4-0,5 mm-dir. Bir meyvənin kütləsi 90-125 həddində dəyişir. Meyvə əti şirəli və zərifdir.



Bir meyvədə toxumların sayı 180-438 ədəd arasında dəyişir. Toxumun forması yastı-yumru, rəngi sarı, səthi hamar, diametri 0,3-0,4 sm olub, orta irilikdədir. 1000 ədəd toxumun kütləsi 5,5 q-dır.







Sort tezyetişəndir, kütləvi çıxışdan meyvələrin texniki yetişkənliyə qədər 115-122 gün, bioloji yetişkənliyə qədər isə 142-146 gün keçir.



Məhsuldarlığı isidilməyən istixana şəraitində 6,5-7,2 kq/m$^2$, isidilən şəraitdə isə 12,4-16,7 kq/m$^2$-dır. Sort fuzarioz soluxması xəstəliyinə qarşı davamlıdır.

Texniki yetişkənlik fazasında olan göy meyvənin biokimyəvi tərkibi aşağıdakı kimidir: quru maddə-6,2%, ümumi şəkər-2,8%, C vitamini-145,4 mq%-dir.

Sort soluxma xəstəliyinə qarşı tolerant davamlılığa malikdir.


*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*




# Şirin bibər
# TÖHFƏ
# (istixana sortu)